# İRAQDA ŞEİR FESTİVALI

**Şeir istədim səndən...**

*Şeir istədim səndən*
*Bir misraya sığacaq,*
*şeir istədim..*
*Yaz mənimçün, əzizim,*
*Ürək dolu bir şeir,*
*Fərəh dolu bir sətir...*
*Sevgi dolu bir cümlə.*
*Aşıb-daşan duyğularla,*
*çiliklənib,*
*səpələnən ürəyimi,*
*yığ, cəmlə.*
*Qəlbini qoy o şeirdə,*
*Qələmi elə sehrlə,*
*kətan bilib ağ vərəqi,*
*çəksin məni...*
*Təkcə məni.*
*Ruhunla boya onu, ürəyinin*
*odunu*
*əsirgəmə sözündən.*
*Bir kövrək şeir yaz,*
*çəmən rəngli...*
*Hər kəlməsi yaz ahəngli,*
*Eşq həvəsli...*
*Bir zərif şeir -*
*Gözündən könlümə ilmələr*
*atan,*
*Bir misra şeir yaz -*
*Ruhumu oxşayan,*
*Qəlbimə yatan.*

**İradə Əlili**





Mart ayının əvvəllərində İraqın Bəsrə vilayətində 33-cü Marbid Beynəlxalq Şeir Festivalı keçirilib. Hər il təşkil olunan bu tədbir İraq Mədəniyyət Nazirliyinin İraq Ədəbiyyatçıları və Yazarlar Birliyi və Bəsrə Ədəbiyyatçılar və Yazarlar Birliyinin təşkilatçılığı ilə reallaşıb. Festivala Türkiyə, Azərbaycan, İran, Suriya, Livan, Finlandiya, ümumən 33 ölkədən 240 nümayəndə dəvət alıb. Türkiyəni Şəmsəddin Kuzəçi, Ayişə Paslanmaz, Azərbaycanı Milli Elmlər Akademiyasının dissertantı, şairə İradə Əlili təmsil edib.

Festivaldan öncə iştirakçılar İraq Mədəniyyət Nazirliyi Nəşriyyat Evinin kitab sərgisi ilə tanış olublar. Festivalın açılışı isə "Bəsrə Limanlar Köşkü" salonunda baş tutub. Açılış mərasimində mədəniyyət naziri Dr. Abdulamir El Hamdani çıxış edib. Eyni zamanda toplantıya Bəsrə şəhərinin məsul şəxsləri, mədəniyyət xadimləri də qatılıblar.

Festivalın açılışı günü 7 ölkənin şairləri öz şeirlərini söyləyiblər. Həmyerlimiz İradə Əlilinin təqdimatında "Bir şeir istəyirəm" şeiri Kərkük şairi Ümüt Köprülü tərəfindən ərəb dilinə tərcümə olunaraq festival iştirakçılarına çatdırılıb.

İraqın Al İraqiyə TV, Şarkiyə TV, Raşid TV, Al Babiliyyə TV, Zagos TV və Basra TV kanalları şeir festivalını canlı yayımlayıblar.

Festival 4 gün davam edib. Azərbaycan Yazıçılar Birliyinin üzvü İradə Əlili İraq televiziyalarına və digər kütləvi informasiya vasitələrinə müsahibə verib.

Tədbir çərçivəsində qonaqlar Bəsrə şəhər muzeyi, mərkəzi kitabxana və digər tarixi yerlərdə olub. Festivalda 25 şairin İraq Mədəniyyət Nazirliyi tərəfindən çap edilmiş kitablarının təqdimatı da keçirilib. ◆